| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 17.10.2014 |
| QEYDİYYAT NÖMRƏSİ | 1055-IVQD |
| ADI | “Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 07-11-2014, Nəşr nömrəsi: 243), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-11-2014, Nəşr nömrəsi: 11, Maddə nömrəsi: 1335) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 07.11.2014 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 370.040.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 12201410171055 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 05.11.2014 |

**"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq, "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, 18, maddə 243; 1995, 14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 385, 6, maddə 493; 1998, 2, maddə 70; 2000, 12, maddə 835; 2001, 3, maddə 143, 6, maddə 378, 11, maddə 674; 2002, 1, maddə 4, 8, maddə 463; 2004, 7, maddə 505; 2005, 3, maddə 152, 10, maddə 874; 2006, 1, maddə 3, 2, maddə 64, 3, maddə 219, 4, maddə 319, 11, maddə 933, 12, maddələr 1006, 1017, 1029; 2007, 7, maddə 712, 8, maddə 753, 11, maddə 1053; 2008, 3, maddə 158, 8, maddələr 699, 701, 10, maddə 886; 2009, 7, maddə 519; 2010, 3, maddə 166, 4, maddə 276, 11, maddə 935; 2011, 4, maddə 270, 6, maddə 474, 7, maddə 580; 2012, 7, maddə 647; 2013, 5, maddə 465, 6, maddə 619, 7, maddə 793; 2014, 4, maddə 323) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar" sözləri "Pasportlar" sözü ilə əvəz edilsin.

2. Preambuladan ", xaricə daimi yaşayış üçün gedən vətəndaşların hüquqi vəziyyəti, əcnəbilərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi qaydaları" sözləri çıxarılsın.

3. 1-ci, 2-ci, 11-ci-15-ci maddələr ləğv edilsin.

4. 9-cu maddənin ikinci hissəsində "Bu Qanunun 1-ci maddəsinin birinci hissəsinin 2-ci və 3-cü bəndlərində, ikinci hissəsində nəzərdə tutulmuş hallarda" sözləri "Vətəndaşın ölkədən getmək hüququ Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində göstərilmiş hallara əsasən müvəqqəti məhdudlaşdırıldıqda" sözləri ilə əvəz edilsin.

5. 16-cı maddədən ", yaxud ölkədən getməyin və ölkəyə gəlməyin bu Qanunla müəyyənləşdirilmiş qaydaları pozulduqda" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 oktyabr 2014-cü il
1055-IVQD